# Bir kərə yüksələn bayraq yaddaşlardan enmədi

## *AXC hökumətinin ilk qərargahında konfrans*

**Milli Azərbaycan Ədəbiyyatı Muzeyində görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyinə həsr olunmuş elmi-təcrübi konfrans keçirilib.**



Konfransı giriş sözü ilə açan muzeyin direktoru, akademik Rafael Hüseynov bildirdi ki, 1918-ci ilin sentyabrında AXC hökuməti Gəncədən Bakıya köçəndə rəhbərlik ilk vaxtlar "Metropol" mehmanxanasında – indiki Ədəbiyyat Muzeyində yaşayıb işləmişdilər. Milli hökumətin iclasları keçirilmiş, indi "İstiqlal" adlandırılan bu salonda M.Ə.Rəsulzadənin 140 illiyinin qeyd edilməsi tarixin məntiqidir. Sonra akademik Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin həyat və fəaliyyəti, milli istiqlal uğrunda apardığı mübarizə, ictimai-fikir tariximizdə yeri və rolu barədə ətraflı məlumat verdi.

Muzeyin direktoru daha sonra XIX əsrin sonu XX yüzilliyin əvvəllərində Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlər yetişdirdiyini vurğulayaraq həmin insanların indiki nəsillərə örnək olan mübarizə yolunun önəmini vurğuladı. O qeyd etdi ki, 19 yaşında siyasət aləminə gələn M.Ə.Rəsulzadə tezliklə istiqlal düşüncəsi, azadlıq eşqi ilə mübarizələrin ön cərgəsinə çıxmışdı. Bu istiqlal aşiqi ictimai mühitə ədəbi, poetik düşüncə ilə gəlmişdi. "Bir kərə yüksələn bayraq bir daha enməz" deyərkən M.Ə.Rəsulzadə istiqlal düşüncəsini nəzərdə tutmuşdu. Onun 1920-ci ildən sonrakı bütün fəaliyyəti ondan ibarət oldu ki, mühacirətdə istiqlal işığını sönməyə qoymadı.

Yubiley məclisində Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Əməkdar rəssam Rais Rəsulzadə babasının siyasi fəaliyyətinə görə bütün qohumlarının əziyyət çəkdiyini, güllələndiyini, sürgünlərdə yaşamağa məhkum edildiyini vurğuladı. O, atası Azər Rəsulzadə ilə bağlı xatirələrini dilə gətirdi. Bildirdi ki, ötən əsrin 90-cı illərində atası 20 Yanvar faciəsinin qurbanlarını ziyarət edərkən təsadüfən Şəhidlər xiyabanında Heydər Əliyevlə görüşüb. Ümummilli lider həmin vaxtda Naxçıvan Ali Məclisinin sədri idi və Azər Rəsulzadəni Naxçıvana dəvət edib, hər cür şərait yaradacağına söz verib.

Konfransın davamında elmi işçi, Nəcibə Bağırzadə "Məhəmməd Əmin Rəsulzadənin ədəbiyyatla bağlı araşdırmalarında Azərbaycan davası", doktorantura və elmi inkişaf şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Sevinc Heydərova "Nizami Muzeyinin ekspozisiyasında Cümhuriyyət irsi", yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Göyərçin Mustafayeva "Tatar tarixçisi Bulat Sultanbekov Məhəmməd Əmin Rəsulzadə haqqında" məruzələrlə çıxış etdilər.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, İctimai-Siyasi Sənədlər Arxivinin "Beynəlxalq əməkdaşlıq, tərcümə və ictimai əlaqələr" bölməsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Şəhla Abdullayeva isə öz məruzəsində M.Ə.Rəsulzadənin repressiyaya məruz qalmış ailə üzvlərinin həbs və sürgün həyatı haqqında yeni faktları iştirakçılarının diqqətinə çatdırdı. Muzeyin tərtibatçı rəssamı Leyla Məmmədova Məhəmməd Əmin Rəsulzadənin yeni heykəlinin hazırlanması üçün eskizlərini təqdim etdi.

Sonda akademik Rafael Hüseynov Məhəmməd Əmin Rəsulzadənin Nizami Gəncəvi yaradıcılığı haqqında 1941-ci ildə yazdığı "Azərbaycan şairi Nizami" kitabı haqqında fikirlərini söylədi. Bildirdi ki, nə qədər ki, Azərbaycan var, üçrəngli bayrağımız dalğalanır Rəsulzadə xalqımızın qəlbində həmişə yaşayacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***